*Azərbaycan Texniki Universitetinin Elmi Şurasının "19" may 2023 il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 7)*

**Azərbaycan Texniki Universitetinin**
**tələbə-rektoru haqqında**

**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Texniki Universitetinin (AzTU) ictimai idarəetmə orqanı olan Tələbə-rektorun fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını və fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.

1.2. Tələbə-rektor öz fəaliyyətində AzTU-nun Nizamnaməsini, AzTU-nun Elmi Şurasının qərarlarını, AzTU-nun rektorunun əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Bu Əsasnamə AzTU-nun Elmi Şurası tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir. Əsasnamədə əlavə və dəyişikliklər AzTU-nun Elmi Şurasının qərarına əsasən aparılır.

1.4. Tələbə-rektor öz vəzifə və hüquqlarını yerinə yetirərkən AzTU - nun digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Tələbə-rektorun fəaliyyət istiqamətləri

2.1 Tələbə-rektor gənclərlə iş üzrə müvafiq təşkilatlarla qarşılıqlı münasibətlərin qurulması məsələləri ilə əlaqədar təmsilçilik və ekspert funksiyalarını yerinə yetirir, ona verilən səlahiyyətlər daxilində universiteti və onun tələbələrinin maraqlarını digər təhsil müəssisələri ilə münasibətlərdə təmsil edir.

2.2 Tələbə-rektor tələbə təşkilatları arasında əlaqələndirici tərəf kimi çıxış edir.

## 3. Tələbə-rektorun hüquqları

3.1. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar olaraq öz səlahiyyətləri daxilində AzTU-nun struktur bölmələrinə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları və ya sənədləri almaq;

3.2. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

3.3. Tələbə-rektor universitetin bərabərhüquqlu ictimai idarəetmə orqanlarından biridir və tələbələrin maraqlarını əhatə edən məsələlərin müzakirəsi və qərarların qəbul edilməsi prosesində iştirak etmə hüququna malikdir.

## 4. Tələbə-rektorun əsas vəzifələri

4.1. AzTU-nun struktur bölmələri ilə sıx əlaqədə olaraq, tələbələrin təhsil aldıqları müddətdə yaranmış sualları cavablandırır və həllinə dəstək verir;

4.2. tələbələrin tədris-tədqiqat potensialını və peşakar inkişafını artırılmasına köməklik göstərir və təklif verir;

4.3. tələbələrin maraqlarını qorumaqla tədris prosesində yaranmış problemlər və münaqişələrin həllinə dəstək göstərir;

4.4. müəllimlərlə tələbələrin münasibətlərin yaxşılaşdırılmasına dəstək göstərir;

4.5. tələbə hüquqlarının pozulması və onların qorunması üçün işlər aparır;

4.6. maraqlarını, onların rəylərini və tövsiyələri rəhbərliyə çatdırır.

## 5. Tələbə-rektorun seçilməsi üçün universitet tərəfindən müəyyən olunan meyarlar

5.1. Tədris ili üzrə yüksək göstəricilər (ÜOMG-81 baldan yuxarı);

5.2. Texnoloji və İKT biliklərin mükəmməlliyi;

5.3. Dil bilikləri;

5.4. İctimai fəallıq və nüfüz.

## 6. Əsasnaməyə dəyişiklik, düzəliş və dəqiqləşdirmələrin daxil edilməsi

6.1. Bu Əsasnaməyə dəyişiklik, düzəliş və dəqiqləşdirmələrin daxil edilməsi yalnız AzTU -nun Elmi Şurasında təsdiq edilməklə həyata keçirilir.

Əsasnamənin lahiyəsini təqdim etdi: ________________ Qəmər İsayeva

**Razılaşdırılmışdır:**

| | | |
|---|---|---|
| Sosial məsələlər və İctimaiyyətlə əlaqələr üzrə prorektor | ________________ | Nərmin Rzayeva |
| İnzibati-idarəetmə məsələləri üzrə müşavir | ________________ | Akif Fərruxov |
| Hüquq sektorunun müdiri | ________________ | Pərvanə Məmmədli |